**Dekabrın 1-də Bakının Fəvvarələr Meydanında "Soyuq Əllər, İsti Ürək" xeyriyyə yarmarkası fəaliyyətə başlayıb. Yarmarkanın unikal Yeni il konsepti ilə bərabər, məqsədi də xüsusi diqqət cəlb edir. Ora üz tutan hər kəs ölkənin müxtəlif yerlərindən "Nargis" Fonduna müraciət edən onlarla ailəyə yeni ümid bəxş edir.**




# Bakının qış nağılı








2003-cü ildən etibarən hər il keçirilən yarmarkanın sponsorlarının maliyyə dəstəyi və yarmarkada qurulan evlərin kirayəsindən toplanan vəsait müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyat xərclərinin qarşılanmasına sərf edilir. Yarmarkada quraşdırılmış evlərin üzərinə yerləşdirilmiş xüsusi QR kodu skan edərək ötən illərdə keçirilmiş yarmarkaların dəstəyi ilə əməliyyat olunmuş uşaqların hekayələri ilə ətraflı tanış olmaq mümkündür.

Yanvarın 15-dək davam edəcək yarmarka hər gün saat 11-dən 23-dək fəaliyyət göstərir. Yarmarkada 64 böyük və 20 balaca ev, 3 ədəd ikimərtəbəli restoran, müxtəlif köşklər və tematik zonalar quraşdırılıb. Qonaqlar bu evlərdən maraqlı Yeni il hədiyyələri və suvenirlər, kitablar, geyimlər və sair əldə edə, kiçik kafelərdə müxtəlif isti və ya soyuq içkilərdən için, münasib qiymətə Qərbin və Şərqin unikal ləzzətli təamlarını kəşf edə, müxtəlif oyunlar oynaya bilərlər.

Bu il yarmarka ərazisində konsepti amerikalı yazıçı Carol Aebersold və qızı Chanda Bellin müəllifi olduqları "Rəfdəki Elf: bir Milad ənənəsi" kitabından ilhamlanmış "nadinc elflərə" də rast gəlmək mümkündür. Yəni sevdiklərimizlə birlikdə əsl Yeni il abu-havası kəşf etmək üçün yarmarkada unikal şərait yaradılıb.

## Müasirliklə ənənəviliyin mükəmməl harmoniyası

Yarmarkaya marağın yüksək səviyyədə olması qonaqların əhvali-ruhiyyəsindən aydın hiss edilir. Evlərin hər biri qonaqlı-qaralıdır, insanlar şəkillər çəkdirir, Yeni il ağacının ətrafına toplaşıb musiqilərin fonunda söhbətləşir və alış-veriş edirlər. Bir sözlə, burada insanların əylənməsi üçün, demək olar ki, hər cür şərait yaradılıb.

Qəribəsi budur ki, şəhərə yayılan yeməklərin - lavaşlar, qutablar, müxtəlif "fast food"ların qoxusu insanları narahat etmir, əksinə, evlərin qarşısında müxtəlif qida məhsulları, xüsusilə də balıq-çörək almaq üçün hər kəs iştahla növbə gözləyir. Burada həm yerli, həm xarici təamları dadmaq mümkündür. Ümumiyyətlə, yarmarkanın konseptində elə bir ahəng yaradılıb ki, müasirliklə ənənəvilik ziddiyyət təşkil etmir, onların ahəngdar əvəzlənməsi könülləri oxşayır. Yarmarkada yerli sakinlərlə yanaşı, çoxsaylı turistlərə də rast gəlmək mümkündür.



"Soyuq Əllər, İsti Ürək" yarmarkasında Avropa modernizmi ilə Şərq üslubu harmoniya təşkil edir, insanlar yarmarkada gəzərkən bəlkə də biixtiyar olaraq gözəl əhvali-ruhiyyəyə qapılır, işin yorğunluğunu, qayğılarını unudurlar. Çünki burada məqsəd müxtəlif bölgələrdə yaşayan və ağır xəstəliklərlə mübarizə aparan körpələrin əllərini də qəlbləri kimi isitmək, onlara yeni nəfəs verməkdir.

İspaniyalı turist Federiko deyir ki, yarmarkanın məqsədi sosial vəziyyəti aşağı olan insanlara yardım toplamaq olduğu üçün burada pul xərcləmək daha rahatdır. Yarmarkada əsl Yeni il abu-havasının yaradılması, məşhur Milad musiqilərinin səsləndirilməsi onu sanki öz vətənindəymiş kimi hiss etdirir. Bildirir ki, yarmarkada satılan Azərbaycana məxsus dadlı şirniyyatlar, xüsusilə paxlava və şəkərbura onun çox xoşuna gəlib.

## "Soyuq Əllər, İsti Ürək" yarmarkasına maraq hər il daha da artır

Satıcıların qonaqlarla xoş rəftarı da gözümüzdən yayınmır. Onlar bildirirlər ki, əslində burada məqsəd təkcə məhsul satmaq deyil, Bakının mərkəzi küçəsində müxtəlif milli nemətlərimizi turistlərə tanıtmaq, uşaqları əyləndirmək, gənclərə unudulmaz anlar bəxş etməkdə pay sahibi olmaqdır.

Yeni il hədiyyələrinin satıldığı evlərdən birinin satıcısı Elvin Mahmudlu deyir ki, bu il yarmarkaya maraq əvvəlki illərlə müqayisədə daha çoxdur: "Demək olar ki, bütün evlərin qarşısında növbə var, həm də saat fərqi olmadan. İş çıxışı vaxtlarında isə, xüsusən saat 6-dan 9-a qədər burada qonaq əlindən yer tapmaq olmur. Amma insanları belə xoş əhvalda görmək bizi daha da həvəsləndirir, sanki işə yox, elə biz də əylənməyə gəlmişik. Müştərilərimiz daha çox uşaqlar və turistlərdir. Turistlər ölkəmizə məxsus suvenirlər, uşaqlar isə cürbəcür oyuncaqlar alırlar".

Satıcı Nurlan Əliyevin "evin"dəki piştaxtaya isə müxtəlif təamlar, xüsusilə də şirnilər düzülüb. Nurlan deyir ki, vətəndaşlarla yanaşı, müxtəlif ölkələrdən gəlmiş turistlər də günboyu yaxınlaşıb fərqli təamların dadına baxırlar.

"Müştərilərimiz sırasında əsasən ruslar, hindlilər, ərəblər və avropalılar üstünlük təşkil edirlər. Hələ onların arasında bizim şirniyyatları bəyənməyən bir nəfərə də rast gəlməmişəm. Hətta ötən gün bir italyan turist yaxınlaşıb pizza alıb getdi, bir neçə saat sonra qayıdıb mənə zarafatla dedi ki, "Maybe this is Roma?". Pizzanı o qədər bəyənib ki, zarafatla buranın Bakı deyil, Roma olma ehtimalını xatırladır. Maraqlı söhbətimiz oldu, sonra bir pizza da alıb, təşəkkür edib ayrıldı", - deyə Nurlan bildirir.

Doğrudan da, "Soyuq Əllər, İsti Ürək" yarmarkasında Bakı nağıl kimi görünür. Burada müxtəlif cür personajlar, şaxta baba, qar qız, nəvələrinin nazını çəkən nənələr-babalar və ən əsası, xəstə körpələrin gələcəyə sonsuz ümidləri məhz nağıllardakı kimi gözəl təsvir olunub. Yarmarkadakı böyük şam ağacının oyuncağına baxa-baxa düşüncələrə dalan balaca qızcığaz da bunu sanki təsdiq edirdi. Balaca əlindən möhkəm yapışan babasına üzünü çevirib deyirdi: "Baba, elə bil nağıllar aləmində gəzirəm".

Həmin vaxt telefonun ekranında qış nağılını yaşayan Bakıda temperatur cəmi müsbət 2 dərəcə göstərsə də, "nağıllar aləmi"nin istisi adamı üşüməyə qoymurdu.

*Nəzrin QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*